əlavə edilsin.

Xalq qəzeti.- 2021.- 15 iyul.- S.5.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 205** **Bakı şəhəri, 14 iyul 2021-ci il**

***"Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejimi dövründə sanitariya vəziyyətinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 1 may tarixli 160 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında***

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejimi dövründə sanitariya vəziyyətinin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 1 may tarixli 160 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 5, maddə 631, № 8, maddə 1096; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 16 iyun tarixli 172 nömrəli Qərarı) 1.9-cu bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 1.10-cu bənd əlavə edilsin:

"1.10. şənlik mərasimləri keçirilən obyektlərin fəaliyyəti.".

**2.** Azərbaycan Respublikasının baş dövlət sanitariya həkimi "Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respub-likası Qanununun 3-cü maddəsinin tələblərinə uyğun olaraq "Şənlik mərasimlərində koronavirus (COVID-19) infeksiyasının idarə olunmasına dair metodiki göstərişlər"i təsdiq etsin.

**3.** Müəyyən edilsin ki, şənlik mərasimləri keçirilən obyektlərin fəaliyyəti bu Qərarın 2-ci hissəsi ilə təsdiq edilən metodiki göstərişlərin tələblərinə uyğun təşkil olunur.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***